InterFood Azerbaijan 30

13 | 14 | 15 | 16
MAY 2025

BAKI EKSPO MƏRKƏZİ

www.interfood.az



30-cu Yubiley Azərbaycan Beynəlxalq

# QİDA SƏNAYESİ SƏRGİSİ

# SƏRGİ ÜZRƏ HESABAT

InterFood Azerbaijan 30

# Mündəricat


| | |
|---|---|
| Sərgi haqqında | 1 |
| Azərbaycan Respublikasının Prezidentinin səfəri | 2 |
| VİP qonaqların rəyləri | 4 |
| PR kampaniyası və KİV-də işıqlandırma | 6 |
| Sərginin informasiya dəstəyi | 7 |
| Reklam kampaniyası | 8 |
| Ziyarətçilər haqqında | 9 |
| Ziyarətçilərin rəyləri | 10 |
| İştirakçılar haqqında | 11 |
| İştirakçıların rəyləri | 12 |
| Sərgi çərçivəsində əlavə tədbirlər | 13 |
| InterFood Azerbaijan 2026 sərgisi | 19 |

InterFood Azerbaijan 30

## "InterFood Azerbaijan" QİDA SƏNAYESİ ÜZRƏ İXTİSASLAŞDIRILMIŞ APARICI SƏRGİDİR

Həyata keçirildiyi illər ərzində "InterFood Azerbaijan" sərgisi özünü mütəxəssislərin illik görüşü və qida sənayesi üzrə avadanlıqların, eləcə də mal və xidmətlərin nümayiş etdirilməsi, habelə yeni sifarişçilərin müəyyənləşdirilməsi, biznes tərəfdaşları ilə mövcud əlaqələrin möhkəmləndirilməsi və yeni satış bazarlarına çıxış üçün etibarlı platforma kimi tanıda bilmişdir.



# PREZİDENTİN SƏFƏRİ

Mayın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ekspozisiyaları baxış keçirərək,
Azərbaycan Respublikasının qida sənayesi və kənd təsərrüfatı potensialını əks etdirən təqdim olunmuş məhsul və xidmətlərlə tanış oldu.
Ölkə rəhbəri həmçinin xarici ölkələrin milli pavilyonlarını da ziyarət edib.








# SƏRGİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ

2025-ci il 13 may tarixində Bakı Ekspo Mərkəzində 30-cu Yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi "InterFood Azerbaijan" sərgisinin rəsmi açılış mərasimi keçirilib.









# VİP QONAQLARIN RƏYLƏRİ



**MƏCNUN MƏMMƏDOV**
Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri

"Caspian Agro" və bu il yubileyini qeyd edən "InterFood Azerbaijan" sərgiləri artıq illərdir ki, kənd təsərrüfatı və qida sənayesində yerli və xarici şirkətlərin innovativ həllərini, yeni texnologiyalarını təqdim etdiyi mühüm platformalardan biri kimi çıxış edir.
Bu sərgi fermerlər, sahibkarlar, investorlar və mütəxəssislər üçün kənd təsərrüfatı və qida sənayesinin aktual məsələləri barədə fikir mübadiləsi aparmaq, biznes əlaqələri qurmaq və müasir innovasiyalarla tanış olmaq imkanı yaradır.



**QOŞQAR TƏHMƏZLİ**
Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri

İnanıram ki, qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən tərəflərin iştirak etdiyi bu beynəlxalq tədbirdə qida sahəsində məhsul və xidmətlərin nümayiş etdirilməsi yeni işgüzar əlaqələrin qurulmasına və genişləndirilməsinə böyük töhfə verəcək.




**ORXAN MƏMMƏDOV**
Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri

Hər il təşkil olunan bu sərgilər aqrar və qida sektorlarında qazanılan uğurların, innovativ texnologiya və müasir texnikaların nümayiş olunduğu əhəmiyyətli platformalardandır.
Xüsusilə, sərgilərdə nümayiş etdirilən ən son aqrar texnologiyalar və innovasiyalar müvafiq sektorlarda məhsuldarlığın artırılmasını, resurslardan daha səmərəli istifadəni və ekoloji cəhətdən dayanıqlı həllərin tətbiqini təşviq edir. Müxtəlif sahələri əhatə edən şirkətləri, o cümlədən idxalçı və ixracatçıları, distribütorları, xarici və yerli ekspertləri, eləcə də ziyarətçiləri bir yerə toplayan sərgilər fikir və təcrübə mübadiləsi, yeni əməkdaşlıqların qurulması və genişləndirilməsi üçün də əlverişlidir.

# VİP QONAQLARIN RƏYLƏRİ



**MƏMMƏD MUSAYEV**
Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti

Ölkəmizdə artıq ənənə halını almış "InterFood Azerbaijan" və "Caspian Agro" sərgiləri dünya ölkələrinin Azərbaycanın qida və kənd təsərrüfatı sənayesinə marağını artırır, həmçinin bioloji təmiz məhsulların istehsalında xüsusən də işğaldan azad edilmiş ərazilərimizə investisiya cəlb olunmasına yeni imkanlar açır.
Əminəm ki, "Caspian Agro" və "Interfood Azerbaijan" bu il də qida sənayesi mütəxəssisləri üçün yeniliklərlə zəngin, faydalı bir platforma olacaq.
Bu sahədə yeni texnologiyaların tətbiqi, əməkdaşlıqların qurulması, xarici mütəxəssislərlə təcrübə mübadiləsi imkanlarını daha yüksək mərhələyə qaldıracaq.



**YUSİF ABDULLAYEV**
AZPROMO-nun icraçı direktoru

Qeyri-neft-qaz sektorunun inkişafı ölkəmizin iqtisadi strategiyasının əsas prioritetlərindən biridir.
Bu baxımdan aqrar sahə və qida sənayesi üzrə beynəlxalq sərgilərin təşkili dayanıqlı iqtisadi artıma mühüm töhfə verməklə yanaşı, yerli və xarici sahibkarlar arasında əməkdaşlığın genişləndirilməsinə də imkan yaradır. Hər iki sərgi təkcə məhsulların nümayiş olunduğu bir platforma deyil, həm də qida istehsalında innovativ həllərin tətbiqi, kənd təsərrüfatı sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və perspektivli tərəfdaşlıqların qurulması üçün ideal fürsətdir.



**EMİN DOSTİYARİ**
Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyasının (AQİSA) İdarə Heyətinin sədri

"InterFood Azerbaijan" və "Caspian Agro" sərgiləri illər ərzində regionda qida və aqrar sənayenin aparıcı platformasına çevrilmişdir. Bu iki sərgi qlobal qida sənayesi trendlərinə uyğun olaraq innovativ texnologiyaları, dayanıqlı istehsal metodlarını və yeni bazar imkanlarını iş adamları və sərmayədarlara təqdim edir.
Bu sərgilər işgüzar dairələrə qida və aqrar sənayenin ən yeni texnologiyaları və avadanlıqları ilə yaxından tanış olmaq, ən son innovasiyaları öz fəaliyyətlərində tətbiq etmək, yaşıl iqtisadiyyata uyğun həlləri mənimsəmək və yeni bazar imkanlarını araşdırmaq fürsəti yaradacaq.

# SƏRGİNİN İCTİMAİYYƏTLƏ ƏLAQƏ TƏŞVİQATI VƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNDƏ İŞIQLANDIRILMASI




## MƏTBUAT KONFRANSI

6 may tarixində 30-cu Yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi "InterFood Azerbaijan" sərgisinə həsr olunmuş mətbuat konfransı "Hilton Baku Otel" mehmanxanasında keçirildi.

### MƏTBUAT KONFRANSINDA İŞTİRAK ETMİŞDİLƏR



**TOĞRUL QAFARBƏYLİ**
Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktor müavini



**NƏRMİN KƏRİMLİ**
Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin Texnoloji transfer və innovasiya şöbəsinin müdiri



**FƏRHAD AŞURBƏYLİ**
Azərbaycan Kulinariya Mütəxəssisləri Assosasiyasının İcraçı direktoru



**BƏHRUZ HİDAYƏTZADƏ**
"Caspian Event Organiser" şirkətinin icraçı direktoru



**ZARİNA MƏMMƏDOVA**
"InterFood Azerbaijan" sərgisinin layihə rəhbəri

**MƏTBUAT KONFRANSINA 23 MEDİA QURUMUNDAN 35 NƏFƏR QATILMIŞDIR.**
Təmsil olunan media qurumları arasında TV kanallardan AZTV, İctimai TV, Baku TV, CBC TV, Mir TV, ARB TV, AGRO TV, xəbər saytları və jurnallardan APA, Azertac, Oxu.az, Trend.az, Report İnformasiya Agentliyi, Caliber.az, Media.az, yeniavropa.az, Today Press, Bizness Time, Star xəbər, resurs.az , visiontv.az, referans.az, Respublika qəzeti, Respublikainfo.com saytının nümayəndələri mətbuat konfransında iştirak etmişdir.

## SƏRGİNİN İNFORMASİYA DƏSTƏYİ

### İNFORMASİYA DƏSTƏYİ

BHB · Caspian Energy Media Group · Food & Ingredients International · Sektor · Foodtech Gulf · Editrice Zeus · Пищевая промышленность · TecnAlimentaria.it · Знак качества

### İNFORMASİYA TƏRƏFDAŞLARI

AZƏRTAC · 1NEWS.AZ

### İNTERNET DƏSTƏYİ

cbc.az · apa · foodsmi · Globy · Lent.az · ona · Прод · ПРОДУКТ BY · vesti.az

# SPONSOR VƏ TƏRƏFDAŞLAR

## TƏŞKİLATİ DƏSTƏK

Azərbaycan Respublikasının
Kənd Təsərrüfatı Nazirliyi

## DƏSTƏK

Azərbaycan Respublikasının
Qida Təhlükəsizliyi
Agentliyi

Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

Azərbaycan Respublikasının
İxracın və İnvestisiyaların
Təşviqi Agentliyi

Azərbaycan Respublikası
Sahibkarlar (İşəgötürənlər)
Təşkilatları Milli Konfederasiyası

Azərbaycan
Qida və İçki Sənayeçiləri
Assosiasiyası

BMT-nin Ərzaq və
Kənd Təsərrüfatı
Təşkilatı

Azərbaycan
Sərgi Təşkilatçıları
Assosiasiyası

## TƏŞKİLATÇILAR

ceo caspian event organisers
ITECA CASPIAN
caspian event management
icaevents

## RƏSMİ MEHMANXANALAR

ibis
Radisson BAKU

## RƏSMİ SƏYAHƏT AGENTLİYİ

GREENWICH TRAVEL CLUB

## STEND QURAŞDIRILMASI ÜZRƏ RƏSMİ TƏRƏFDAŞ

AZ EXPO MONTAGE

## TİBB XİDMƏTLƏRİ ÜZRƏ TƏRƏFDAŞ

Referans MEDICAL GROUP

# REKLAM KAMPANİYASI













## KÜÇƏ REKLAMI

- TRANSPARANTLAR
- BİLBORDLAR
- POSTERLƏR
- ROLLAPLAR
- MONITORLAR
- SKROLEYLƏR

## KİV İCMALI

- Qazet və jurnallarda **62** məqalə
- Telekanallarda və radioda **59** xəbər
- **185** internet portalında **1233** xəbər

## BİRBAŞA GÖNDƏRİŞLƏR

- İxtisaslaşdırılmış məlumat bazası üzrə elektron poçt vasitəsi ilə göndərişlər
- Tərəfdaşların, dövlət strukturların və assosiasiyaların məlumat bazaları üzrə elektron poçt vasitəsi ilə göndərişlər
- Məlumatın ixtisaslaşdırılmış nəşrlərdə, ixtisaslaşdırılmış saytlarda və sosial şəbəkələrdə yerləşdirilməsi.

# SƏRGİ ZİYARƏTÇİLƏRİ

**14820**
ziyarətçilərin sayı

**11400**
unikal ziyarətçilərin sayı

## ZİYARƏTÇİLƏRİN FƏALİYYƏT SAHƏSİLƏRİ

**43 %**
Qida məhsullarının distribyutorları

**41 %**
Aqrosənaye kompleksi, kənd təsərrüfatı məhsulları

**37 %**
Meyvə və tərəvəz istehsalı

**36 %**
Ət emalı müəssisələri, ət emalı

**33 %**
Süd məhsulları, pendir istehsalı

**31 %**
Qablaşdırma, qablaşdırma avadanlığı

**29 %**
Çörək zavodları, qənnadı məmulatları

**28 %**
Qida / içki / tərkib hissəsi istehsalçıları

**27 %**
İçki istehsalı

**26 %**
Ticarət / pərakəndə satış şəbəkələri

**26 %**
Korporativ Alıcılar

**26 %**
Qida emalı avadanlığı

**25 %**
Yağ və yağ məhsulları

**18 %**
HoReCa (otel, restoran, kafe)

**17 %**
Ərzaq və qəlyanaltı istehsalı

**17 %**
Maddələr, qatqılar, ədviyyat istehsalı

**16 %**
Nazirlik / Dövlət strukturlar

**9 %**
Xidmət

**94%** Ziyarətçilərin 94% öz səfərini səmərəli hesab edirlər

**78%** Ziyarətçilərin 78% satın alma qərarlarını qəbul edir və ya onlara təsir göstərir

# ZİYARƏTÇİLƏRİN RƏYLƏRİ



**Aleksey Yefremov,**
"Ribbstyle" şirkətinin nümayəndəsi,
Niderland

Bizim şirkət hələlik Azərbaycanda fəaliyyət göstərmir.
Hesab edirəm ki, burada fəaliyyətə başlamağımız üçün ilk addım gələn il keçiriləcək "InterFood Azerbaijan" sərgisində iştirak etmək ola bilər.
Sərgidə ən çox xoşuma gələn məqam işgüzar atmosfer oldu.
Stendlərdə daim şirkətlərin rəhbərlik səviyyəsində qərarverməyə səlahiyyətli nümayəndələri olur və demək olar ki, bütün məsələlər dərhal yerindəcə həll olunur.
Bu isə çox rahat və işgüzar yanaşmadır.



**Maksim Semenov,**
"April Plast" şirkətinin rəhbəri,
Rusiya

Sərginin səviyyəsi məni doğrudan da çox təsirləndirdi. Axtardığım hər şeyi burda tapdım. Avadanlıqlarımıza maraq göstərən şirkətlərlə perspektivli danışıqlar apardım. Onların arasında həm bazarın iri iştirakçıları, həm də kiçik və orta biznes nümayəndələri var idi. Fərqli səviyyələrdə olan şirkətlərlə əməkdaşlıq imkanlarının yaradılması sərginin vacib üstünlüklərindən biridir. Xüsusilə sərginin təşkilatçılıq səviyyəsini qeyd etmək istəyirəm. Bakı Ekspo Mərkəzinin əlverişli yerləşməsi və iri sərgi tədbirlərinin təşkili üçün yaradılmış müasir şərait, stendlərin effektiv quruluşu və informasiya təminatı bütün ekspozisiyaları rahat şəkildə gəzməyə və lazım olan stendləri asanlıqla tapmağa imkan verir. Satıcıların və istehlakçıların bir məkanda toplanması qısa müddətdə genişmiqyaslı və səmərəli əlaqələr qurmağa imkan verir.



**Urfan Mirmovsümov,**
"Mont Royal Canada" şirkətinin
Baş Direktoru

Mən dünyadakı bir çox sərgilərdə olmuşam və əminliklə deyə bilərəm ki, Azərbaycan sərgiləri heç birindən geri qalmır, bəzən isə onları geridə qoyur. Mənim fikrimcə, aqrar və qida sərgilərinin paralel keçirilməsi özlüyündə çox yaxşı bir ideyadır, çünki bu iki sahə bir-birini tamamlayır. Düşünürəm ki, öz məhsullarını bazara çıxarmaq və inkişaf etdirmək istəyən şirkətlər üçün belə tədbirlərdə iştirak etmək zəruridir.



**Saparmurad Xocaquliyev,**
"Ay Aydın" şirkətinin
meneceri, Türkmənistan

Sərgi məndə çox müsbət təəssürat yaratdı. Qeydiyyat prosesindən tutmuş sərgi sahələrinin peşəkar şəkildə təşkili, işgüzar proqram, iştirakçıların yüksək səviyyəsi – bütün bunlar bu tədbirin nüfuzlu və yüksək səviyyəli olduğunu göstərir.

# İŞTİRAKÇILAR




**156** ŞİRKƏT

**18** ÖLKƏ

**2701 $м^2$** SƏRGİ SAHƏSİ

## İŞTİRAKÇI ÖLKƏLƏR

- AZƏRBAYCAN
- BELARUS
- BELÇİKA
- MİSİR
- HİNDİSTAN
- İRAN
- İORDANİYA
- İTALİYA
- KANADA
- ÇİN
- BƏƏ
- FƏLƏSTİN
- RUSİYA
- ABŞ
- ŞRİ LANKA
- TÜRKİYƏ
- TÜRKMƏNİSTAN
- ÖZBƏKİSTAN

# SƏRGİ İŞTİRAKÇILARININ RƏYLƏRİ



**Sunil Pamnani,**
"Gemni" şirkətinin baş direktoru, Hindistan

"InterFood Azerbaijan" kimi ixtisaslaşmış sərgilər şirkətimizin tanıdılmasına və yeni əlaqələrin qurulmasına şərait yaradır. Mən sərgidə artıq bir neçə potensial tərəfdaşla tanış olmuşam. Azərbaycanda ilk dəfə iştirak etdiyimizi nəzərə alaraq, bu bizim üçün çox ümidvericidir bir məqamdır.



**Aybolek Orazova,**
"Uly Chinar" Şirkətinin Xarici İqtisadi Əlaqələr üzrə Mütəxəssisi, Türkmənistan

Bu sərgi bizə birbaşa əlaqə qurmaq, məhsullarımızı yerində nümayiş etdirmək və yeni işgüzar tərəfdaşlıqlar yaratmaq imkanı verdi. Əminəm ki, sərgi Azərbaycan bazarındakı fəaliyyətimizi genişləndirmək baxımından bizim üçün faydalı olacaq.



**Nikolay Boxonyuk,**
"Luninets Süd Zavodu" ASC-nin direktoru, Belarus

2025-ci il sərgisinin gedişatından çox razıyıq. "InterFood Azerbaijan" sərgisinin ilk günlərində "Luninets Süd Zavodu" ASC Özbəkistan şirkəti ilə 10 milyon ABŞ dolları məbləğində quru süd tədarükünə dair müqavilə imzalayıb. Bundan əlavə, biz Azərbaycan şirkətlərindən biri ilə 150 ton yağsız quru südün tədarükü üzrə müqavilə bağlamışıq. Məhsullarımıza Azərbaycan milli şirniyyatları istehsal edən qənnadı müəssisələri də maraq göstərib. Hal-hazırda həmin şirkətin nümayəndələrini Belarusdakı müəssisəmizə dəvət etmişik.



**Rza Məmmədov,**
"Azersun Holding"in PR departamentinin rəhbəri, Azərbaycan

Mən hər zaman bizneslə məşğul olanlara sərgilərdə iştirak etməyi tövsiyə edirəm. Bu, biznesinizə təkan verəcək, bazarı anlamağınıza kömək edəcək və əlaqələrin genişlənməsinə şərait yaradacaq. Keçmiş illərdə "InterFood Azerbaijan" sərgisində iştirak təcrübəmiz göstərir ki, biz hər zaman sərgidən fayda əldə etmişik. Sərgi günlərində aparılan müzakirələrdən demək olar ki, həmişə geri dönüşlər olub. Məsələn, "Made in Azerbaijan" brendi altında təklif etdiyimiz bir sıra məhsullar sərgidə beynəlxalq alıcılar tapıb.

# İŞGÜZAR SƏHƏR YEMƏYİ











Təşkilatçılar sərgidən əvvəl keçirilən işgüzar səhər yeməyində iştirakçılar ilə bir sıra görüşlər keçiriblər.
Bu tədbirin keçirilməsində məqsəd iştirakçılara sərginin imkanlarından səmərəli şəkildə istifadə etməkdə köməklik göstərmək olmuşdur.





# "QIZIL ŞAH 2025" BEYNƏLXALQ KULİNARİYA ÇEMPİONATI



Çempionat ilk dəfə beynəlxalq status aldı və müxtəlif ölkələrdən və regionlardan iştirakçıları birləşdirdi. Çempionat çərçivəsində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Malayziya, Rusiya, Sinqapur, Türkiyə və Özbəkistanı təmsil edən aşpazlardan ibarət 8 komandanın iştirakı nəzərdə tutulmuşdur. Eyni zamanda çempionatda 30-dan çox yerli komanda yarışacaq və 300-dən yuxarı aşbaz fərdi iştirakçı kimi 10-dan artıq kateqoriya üzrə mübarizə aparır.

**Çempionatın münsiflər heyəti 16 ölkədən olan Ümumdünya Kulinariya Cəmiyyətləri Birliyinin lisenziyalı aşbaz-hakimlərindən ibarətdir.**





# BEYNƏLXALQ AQRAR İNNOVASİYA FORUMU






**FORUM AQRAR SEKTORUN AKTUAL ÇAĞIRIŞLARI VƏ PERSPEKTİVLƏRİ, O CÜMLƏDƏN DAVAMLI İNKİŞAF, İQLİM DƏYİŞİKLİKLƏRİ, RƏQƏMSALLAŞMA VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ MÖVZULARINDA EKSPERTLƏRİ VƏ İŞTİRAKÇILARI BİRLƏŞDİRDİ.**

## FORUMUN ƏSAS FƏALİYYƏT İSTİQAMƏTLƏRİ:

- Kənd təsərrüfatında iqlim dəyişiklikləri və davamlı inkişaf məsələləri
- Süni intellekt və ağıllı kəndlər daxil olmaqla, innovativ texnologiyaların tətbiqi
- Aqroparkların, startapların və rəqəmsal həllərin (Smart Agro) inkişafı
- Sahibkarlığın, kooperativlərin dəstəklənməsi və aqrar sektorda qadınların rolu
- Dövlət maliyyə dəstəyi və aqrosığorta sistemi
- Təhsil və balıqçılığın inkişafında sahələrarası əməkdaşlıq
- Aqronomiyada dövlət-özəl tərəfdaşlıq mexanizmlərinin müzakirəsi

Forum aqrar sektorun davamlı və innovativ inkişafı üçün əsas maraqlı tərəflər arasında dialoqun güclənməsinə töhfə verdi.

# B2B WORKSHOP









Bu görüşlərdə xarici və yerli istehsalçılar, habelə distribyutorlar və pərakəndə satış şəbəkələrinin nümayəndələri iştirak ediblər. 218 iş görüşməsi keçirilib.

**Sərgi çərçivəsində eyni anda bir neçə əsas müştəri ilə işgüzar danışıqlar aparmaq üçün əlavə imkan yaradan "B2B" formatlı görüşlər keçirilib.**





# FERMER TURLARI



Ənənəvi olaraq hər il Caspian Agro sərgisində
**Azərbaycanın 63-dən çox regionundan**
təcrübə mübadiləsi və yeni texnologiyalarla tanış olmaq məqsədi ilə işgüzar turlar təşkil olunur ki, bu da yüksək keyfiyyətli məhsul istehsal etmək üçün vacib şərtlərdən sayılır.





# AXŞAM ZİYAFƏTİ










Mayın 13-də sərginin qonaqları və təşkilatçılar üçün axşam ziyafəti təşkil edilib.
Axşam ziyafəti "Buta Palace"da keçirilib.






# InterFood Azerbaijan

**5 | 6 | 7 | 8 MAY 2026**
**BAKI EKSPO MƏRKƏZİ**

## GƏLƏN İL KEÇİRİLƏCƏK SƏRGİNİN XÜLASƏSİ

## İŞTİRAKÇI ÖLKƏLƏR

| | | | |
|---|---|---|---|
| AZERBAIJAN | INDIA | CHINA | TURKMENISTAN |
| BELARUS | IRAN | RUSSIA | UZBEKISTAN |
| BELGIUM | JORDAN | USA | UAE |
| EGYPT | ITALY | SRI LANKA | PALESTINE |
| | CANADA | TÜRKİYE | |

## INTERFOOD AZERBAIJAN 2025

**SƏRGİ** | **İŞTİRAKÇILAR**

- 14820 ziyarətçi
- 11400 unikal ziyarətçilər
- 156 ŞİRKƏT
- 18 ÖLKƏ
- 2701 $M^2$ SƏRGİ SAHƏSİ

## SƏRGİNİN ƏSAS BÖLMƏLƏRİ

- KONSERVASIYA
- UŞAQ QIDALARI
- SOYUQ ZƏNCIR VƏ LOGISTIKA
- QƏNNADI VƏ ÇÖRƏK-BULKA MƏHSULLARI
- SÜD MƏHSULLARI
- BALIQ VƏ DƏNIZ MƏHSULLARI
- DONDURULMUŞ MƏHSULLAR VƏ YARIMFABRİKATLAR
- AVADANLIQ
- BAKALEYA MALLARI
- İDMAN QIDALARI
- QABLAŞDIRMA
- ÇAY VƏ QƏHVƏ
- QIDA TƏHLÜKƏSIZLIYI VƏ KEYFIYYƏTƏ NƏZARƏT
- QLÜTENSIZ MƏHSULLAR
- İÇKİLƏR (SPIRTLI VƏ SPIRTSIZ)
- MEYVƏ VƏ TƏRƏVƏZLƏR
- HALAL MƏHSULLAR
- HORECA
- İNQREDIYENTLƏR
- ƏT VƏ TOYUQ MƏHSULLARI
- YAĞ-PIY MƏHSULLARI VƏ SOUSLAR
- SAĞLAM QIDALANMA BIOMƏHSULLAR

# InterFoodAzerbaijan | www.interfood.az | InterFood Azerbaijan

# InterFood Azerbaijan

**5 | 6 | 7 | 8 MAY 2026**

**BAKI EKSPO MƏRKƏZİ**

## www.interfood.az

# InterFoodAzerbaijan

InterFood Azerbaijan




TƏŞKİLATÇILAR:

ceo caspian event organisers · ITECA CASPIAN · caspian event management · icaevents

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ | AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ | AZƏRBAYCAN RESPUBLİKASININ KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFI AGENTLİYİ | AZƏRBAYCAN RESPUBLİKASININ İXRACIN VƏ İNVESTİSİYALARIN TƏŞVİQİ AGENTLİYİ | AZƏRBAYCAN RESPUBLİKASI SAHİBKARLAR (İŞƏGÖTÜRƏNLƏR) TƏŞKİLATLARI MİLLİ KONFEDERASİYASI | AZƏRBAYCAN QİDA VƏ İÇKİ SƏNAYEÇİLƏRİ ASSOSİASİYASI | BMT-NİN ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATI | AZƏRBAYCAN SƏRGİ TƏŞKİLATÇILARI ASSOSİASİYASI |